**QARAQAN**

# Üçüncü Addım

*Rəqəmsal meşə*

qanun nəşriyyatı

“Üçüncü Addım”ı bu gün oxuyub bitirdim. Yazdıqlarıma baxdım və başa düşdüm ki, bu qarışıq, ağır və inanılmaz kitabdan heç nə anlamaq olmur. Kvant fizikasını, Kemantika, Rasionalizm fəlsəfəsi, Astrofizika, Etologiya və Neyrofiziologiyanı, Dzen məktəbini bir araya sıxışdırmaq, 200 səhifədə tam anlatmaq mümkün olmadı. Bu kitab Üçüncü Addım deyil, Üçüncü Addıma doğru bir işarədir. Onu atmaq üçün isə siz özünüz daha dərindən və hər bir mövzunu ayrılıqda incələməlisiniz. Ümid edirəm ki, Rəqəmsal meşəyə bu alleqorik səyahət sizin yadınızda xoş bir xatirə olaraq qalacaq.

P.S. Kitabı bitirdikdən sonra “Üç Addım” trilogiyasını yenidən oxuyun. Yalnız belədə dolğun bir nəticəyə gələ biləcəksiniz.

**Qaraqan ÜÇÜNCÜ ADDIM**
*Rəqəmsal meşə*
Bakı, Qanun Nəşriyyatı, 2024, 208 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 12.02.2024

Naşir: Şahbaz Xuduoğlu
Redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-864-0

© Qaraqan, 2021; 2024
© Qanun Nəşriyyatı, 2021; 2024

*“Üç Addım” trilogiyasının yazılmasında mənə kömək edən hər kəsə təşəkkürlər. Xüsusi olaraq:*

*Vyana Təbiətşünaslıq Muzeyi və onun kollektivi, Hyuston NASA kosmik stansiyası və xüsusi olaraq Don Pedersen və onun ailəsi, Orta əsr Əlyazmalarından istifadəyə icazə verdiyi üçün Kembric və Yell Universitetinə, Mifologiya və ritual ədəbiyyatından istifadəyə imkan yaratdığı üçün G.Dolfi və Texas Universitetinə, New York Public Library və New York Natural History Museum, eləcə də qədim şumer mixi yazılı lövhələri, ilk çap edilmiş İncil, qədim Atlas və xəritələrə görə məşhur Mason J.P.Morganın ev muzeyinin kollektivinə, Avropa səyahəti zamanı məni evində qonaq edən Marta xanım, Karpatlarda Magic Mountins istirahət evinin sahibi və dini mövzularda köməklik edən Praqa Şəhər əfsanələri üzrə Gid Vladislav, Trabzon Sumela qalasının qalıqları üzərində UFO rəsmlərini çəkmək və incələməkdə yardımcı olan heyətinə, New York Paragraph yazıçılar mərkəzinə – əlverişli şərait və yazı məkanı üçün, Azərbaycan Yazıçılar Birliyi və xüsusilə Rəşad Məcidə daim göstərdiyi diqqət və Yazıçılar Birliyinin məni dünyanın bir çox elmi və mədəni mərkəzlərinə daxil olmağıma köməklik edən vəsiqəsinə görə. Bu kiçik sənədin nələrə qadir olduğundan bir çox yazıçılarımız xəbərsizdir. Eləcə də “Qanun” nəşrlər evinin sahibi Şahbaz Xuduoğlu və “Əli və Nino” kitab dükanları şəbəkəsinin sahibi Nigar Köçərli və xüsusi olaraq Rəna xanıma – gülərüz, həvəsləndirici sözlər, peşəkar iş, xoş fikirləriniz və Azərbaycan ədəbiyyatı üçün çəkdiyiniz əziyyətlər və ümidiniz üçün. Azərbaycan Norveç səfirliyindən Kerstin və Astrid xanımlara və yaradıcılığıma diqqət yetirən Amerika səfiri*

*cənab Morningstara? eləcə də MultiŞengen vizası almaqda yardımçı olan Almaniya səfirliyi əməkdaşlarına. Gözəl türkçəsi və məsləhət verdiyi sufi ədəbiyyatına görə əslən avstriyalı olan Jennet xanıma və ümumilikdə Austin Orta Şərq araşdırma mərkəzinə xoş türk dili axşamlarında keçirilən söhbətlərə görə. İslam və hənəfilik haqda bilgilərə görə Kadir Bektaşoğlu, Yadullah və Siracəddin müəllimlərə – məni olduğum kimi qəbul etdikləri və gələcəkdə kitab yazmağa həvəsləndirdikləri, saf ruhlu və təmiz ürəkli olduqları üçün. Keçmiş Host, Madhouse kollektivlərinə fəlsəfi söhbətlər, uzun-uzadı fikirlər və nəzəriyyələrimi dinlədikləri və bundan bezmədikləri və ya bezdiklərini bildirmədikləri üçün. Milli Təhlükəsizlik Nazirliyinə hələ də kitablarımı qadağan etmədikləri və gənclərin bu biliklərə yiyələnməsinin qarşısını almadıqları üçün. Bakı Göy Məscidi, İlahiyyət məscidi, Kaliforniya Saentologiya kilsəsi, Katolik və Pravoslav kilsələri, ABŞ Krişna və Buddizm və Yahudi məktəblərinin kollektivi, eləcə də Skayp konfranslarda iştirak edən lektor və müəllimlərə – suallarımı səbirlə qəbul etdikləri, gözəl sakit abu-hava və saf inamları üçün.*

*Eləcə də orijinal kitablarımı "Əli və Nino" dükanlarından alan daimi oxuculara təşəkkür edirəm. Sizlər üçün kiçik görünən bu əməliniz Azərbaycan ədəbiyyatına və gənclərinə böyük yardım və dəstəkdir.*

*Və ən sonda çox vaxt adlarını çəkmədiyim, lakin daim yanımda olan və mənim dözülməz anlarımda belə səbir edib kitab yazdığımı anlayan, qeyri-adiliyimi və bəzən sərt prinsipiallığımı, absurd fikirlər və istənilən doğmalara qarşı çıxmağımla onlara narahatlıq da yaratdığım anlara görə ailə üzvlərim və köməklərini əsirgəməyən yaxın dostlarıma təşəkkür edirəm!*

*“Gəl, gəl, yenə gəl! Kim olursan ol, gəl,*
*İstər kafir, istər məcusi, istər bütpərəst ol,*
*İstər yüz dəfə tövbə etmiş ol,*
*İstər yüz dəfə pozmuş ol tövbəni,*
*Ümidsizlik qapısı deyil bu qapı.*
*Necəsən, elə gəl!”*

***Mövlana Cəlaləddin Rumi***

Buludlu sentyabr səhəri o papirosuna tütün doldurub üzbəüz əyləşən xanıma baxırdı. Bu otaq sıradan xəstəxana palatalarından çox fərqlənirdi. Otağın bir küncündə köhnə qrammofon və uzaq səfərdən gətirdiyi şahmat qutusu, pəncərənin kənarında kiçik terrariumda o yan-bu yana gəzişən sincab, onun arxasındakı divarda böyük kətan parça üzərində 18-ci əsr məşhur Avstriya rəssamının çəkdiyi peyzaj otağın abu-havasını yumuşaldırdı. Xanım o dövrə xas olan qəhvəyi pencəkdə və onun altından geyindiyi açıq boz paltarda idi. Dahi psixoanalitik gülümsəyir və xanımla söhbət edirdi. Onların söhbəti heç həkim və pasient söhbətinə bənzəmirdi. Sanki yenicə tanış olduğu xanımı öz şirin dili və sərt xarizması ilə məğlub etməyə çalışan, kişi kimi arada zarafat edir, arada çox ciddi olur və birdən elə intim və tərbiyəsiz sual verirdi ki, xanımın bütün rəngi dəyişir və gözləri ora-bura qaçaraq bu otağın bir-birindən fərqli gözəl və qeyri-adi heykəlcikləri, suvenir və kitablarının arxasında gizlənmək üçün yer axtarırdı.

– Deyirsiniz ki, bu işlə heç məşğul olmursunuz?

Xanım utanaraq deyir.

– Yox... heç vaxt. Siz nə danışırsınız... Bu bir əxlaqlı xanıma yaraşmayan və qəbul olunmaz hərəkətdir.

Doktor gülümsəyir və deyir:

– Sizi inandırım ki, hörmətli bir doktora yalan danışmaq ondan daha əxlaqsız və tərbiyəsiz hərəkət olar.

Qadın diqqətlə onun iblis baxışlı iti gözlərinə baxır və qurumuş boğazını masadakı bir bardaq su ilə isladır.

Qadının özünü itirdiyini hiss edən doktor vəziyyəti daha mülayim etmək üçün deyir:

– Xanım, indi biz belə bir oyun oynayacağıq. Mən sizin şüuraltınızla söhbət etmək üçün bu kiçik saatı yelləyəcəyəm. Siz isə diqqətlə başınızı tərpətmədən göz bəbəkləriniz ilə saatı müşahidə edəcəksiniz.

O, cibindən ornamentlərlə zəngin gümüşü qapaqlı saatı çıxarır və yavaşca yelləməyə başlayır. Hipnoz artıq uzun illər elmə məlum idi, amma onun işləmə metodları hələ tam formalaşmamış və haradasa tibb ilə sehr arasında bir yerlərdə idi. Amma doktor hipnozun mümkünlüyünü yoxlamaq istəmirdi. O artıq on ildən çoxdur ki, hipnoz vasitəsilə yüzlərlə pasienti müalicə edib və bu saatı peşəkar janqlyor rahatlığı ilə o yan-bu yana yelləyirdi. Doktorun məqsədi tamam başqa bir şey idi. Xanım öz xəbəri olmadan doktorun terrariumdan onlara baxan təcrübə sincabı kimi bir alətə çevrilmişdi. Həmin gün qeyri-adi bir hadisə baş verəcəkdi. Və bu hadisədən sonra uzun illər Doktor bütün işləri atıb yalnız bu fenomeni araşdırmağa çalışacaq və ömrünün sonuna kimi bu suala tam cavab tapa bilməyəcəkdi.

– Mən indi ondan geriyə doğru sayacam. Sıfıra çatanda siz dərin bir yuxuya gedir və mənim səsimi, yalnız mənim səsimi dinləyəcəksiniz. Göz qapaqlarınız ağırlaşır. Getdikcə ətraf qaralır və göz bəbəkləriniz aşağıya enir. Boyun və çiyinlərinizdən ılıq bir rahatlıq bütün bədəninizə doğru yayılır. Bax belə... Siz rahatlanır və sakitləşirsiniz. Ürək döyüntüləriniz və nəfəsiniz getdikcə daha yavaş, daha sakit... Bax belə... Gözəl... yeddi... altı... Siz dərin bir yuxuya gedir və yalnız mənim səsimi eşidirsiz. Üç, iki... indi yalnız mənim səsim gəlir... bir... Sıfır...

Qadını hipnoz vəziyyətinə salan doktor diqqətlə pəncərədən çölə baxır. Günəş işıq saçır və Vyananın küçələri canlanırdı. Yenicə istehsaldan çıxmış Marcus avtomobillərinin səsi hələ də yolların dominantı olan at faytonlarının səsinə qarışırdı. O, qəlyanına doldurduğu Pəncab tütününü alışdırır və dərindən tüstünü xəstə ağ ciyərlərinə çəkirdi. O, könüllü olaraq ciyərlərini darmadağın edirdi. Dünya müharibəsindən qurtulmuş insan üçün

iki ağ ciyər nə idi ki? Amma onu nəsə narahat edir. O, diqqətlə trans halında oturacağa söykənmiş qadına baxır və deyir:

– Gözəl xanım, siz məni yaxşı eşidirsiniz?

Xanım gözlərini açmadan lap qırıq səslə cavab verir:

– Bəə...li.

O artıq intonasiyadan pasientlərin transda olub-olmadığını anlaya bilirdi, qadın dərin hipnoz altında idi:

– Çox gözəl. Siz bura gələndə özünüzlə çətir gətirmişdiniz. Onu içəri girib sağ tərəfdəki asılqandan, paltonuzun yanından asmısınız. Bu gözəl, tünd-qəhvəyi rəngli çətirdi. Siz onu hər ehtimal özünüzlə götürmüsünüz ki, birdən yağış yağar.

Xanım gülümsəyir və deyir:

– Bəəli... birdən... yağı...ş yağar... amma...

Doktor gülümsəyir və sanki iki yaşlı uşaqla danışırmış kimi deyir:

– Amma yağış yağmadı... necə də gözəldir, elə deyilmi? Günəş çıxıb, Vyana şəfəqlər altında parlayır. Yaaağğışş yağmır..

Qadın uşaq kimi gülümsəyir, onun ağlı başında deyil. Qadının tam dərin transda olduğunu görən doktor səsini universitet diktoru kimi möhkəm və qalın hala salaraq qəti şəkildə deyir:

– İndi Saat 11-dir, düz iyirmi dəqiqə sonra yerinizdən durub çətiri əlinizə alır, sonra oturduğunuz yerdə onu başınızın üstündə açırsınız! İyirmi dəqiqə sonra!

Xanım susur və qul kimi doktorun növbəti əmrini gözləyir. Doktor bu dəfə çox mülayim səslə deyir:

– İndi siz yuxudan ayılacaqsınız. Amma yuxuda olarkən danışdığımız bütün şeyləri unudacaqsınız. Mən sizə çətirlə bağlı dediyimi də. Amma iyirmi dəqiqə sonra çətiri açırsınız. Danışdıqlarımızı unudun. Üç, iki, bir sıfır.

Xanım dərin transdan oyanır və yaddaşını itirmiş uşaq kimi ətrafa baxır. Doktorun üz cizgiləri dəyişməyib və o hələ də saatı yelləyir.

Xanım gülümsəyir və saata baxır. Doktor deyir:

– Boş verin, bu yeni elmi üsuldur, hər adamda alınmır. Buna hipnoz deyirlər. Deyəsən, bu dəfə də alınmadı. Yaxşısı, gəlin sizdən danışaq. Sizin evdəki o kiçik probleminizdən.

Xanım üzülür və danışmağa başlayır, o, hipnoz haqda hər şeyi unudub:

– Doktor, ərim, demək olar ki, hər gün bir mövzu tapıb mənimlə dalaşır. Mən artıq nə edəcəyimi bilmirəm. Axı mən ona qarşı heç bir pis hərəkət etməmişəm. İşdən gələn kimi pencəyini çıxarır, onun öz anasından öyrəndiyim reseptlərlə hazırladığım yeməkləri süfrəyə qoyur, uşaqların dərslərini yoxlayır və yatmağa uzadıram. Amma o mənə yaxınlaşmır ki, yaxınlaşmır. Sanki biz özgə adamlarıq. Niyə birdən-birə belə olsun ki, mən ona dəyişdiyini deyəndə o qəti şəkildə bildirir ki, mən dəyişmişəm. Amma mən əmin idim ki, o ya başqa bir qadınla görüşür, ya işdə böyük problemləri var, ya da qumara baş qoşub. Bunu başqa heç cür izah edə bilmirdim. Amma bir gün bunu qızımdan, öz doğma qızımdan da eşidəndə özümdən şübhələnməyə başladım. Qızım dedi ki, sanki son aylar mən özümdə deyiləm. Mənə nəsə olub, çox fikirliyəm. Amma mən heç fikirli deyil... – Əslində, xanımın bu söhbəti doktoru heç maraqlandırmır. O, diqqətlə divar saatına baxır və əqrəbin 11:20-ə çatmasını gözləyir. Budur, vaxt çatır, doktor diqqətlə xanıma baxır.

– ...mən düşünürəm, bəlkə, elə ərimlə davamlı davalara görə belə fikir... lii... olm... – xanım çaşır, sözünü bitirmədən ayağa qalxır və asılqana yaxınlaşır, oradan çətirini götürüb yenidən doktorla üzbəüz oturacaqda əyləşir və çətiri başının üstündə açır – belə... fikirli olmuşam... yəqin ki, bütün məsələ elə mənim ərimlə...

Doktor heyrətlə bu hadisəyə baxır, amma onu heyrətləndirən qadının çətiri açması deyil. Onu heyrətləndirən verəcəyi növbəti sualdır. O, xanımın sözünü yerindəcə kəsib təəccüblə soruşur:

– Əziz xanım, siz niyə bunu etdiniz ki?

Xanım sanki yuxudan ayılmış kimi otağın içində başı üstə açdığı çətirə baxır və susur. Amma bu susqunluq cəmi bir neçə saniyə çəkir. Bir neçə saniyə sonra isə o, əminliklə cavab verir:

– Doktor, yolda bayaq sizin yanınıza qalxarkən çətir pilləkənə ilişmişdi və mən düşündüm ki, ola bilsin, o, xarab olub. Onu yoxlamaq istəyirdim. Görüm qırılıb, ya yox.